Caspian
International
Law Moot Court

# Final Report

of the 1st Edition of
the Caspian International
Moot Court Competition



# Mündəricat

**Müəlliflərimizdən**....3
**Caspian International Law Moot Court yarışının dəstəkçiləri**....5
**Caspian International Law Moot Court barəsində**....6
**Caspian International Law Moot Courtun ilk buraxılışı barədə**....7
**Konsultasiya mərhələsi**....11
Konsultasiya barədə....11
Konsultasiya mərhələsinin nəticələri....12
Konsultasiya mərhələsində iştirak edən hakimlər....13
**Kazusun elan edilməsindən sonrakı onlayn təlim**....14
**Yazılı memorandum mərhələsi**....15
Yazılı memorandum mərhələsi barədə....15
Yazılı memorandum mərhələsinin nəticələri....15
Yazılı memorandum mərhələsində iştirak edən hakimlər....16
**Şifahi çıxışların ¼ final mərhələsi**....18
Şifahi çıxışların ¼ final mərhələsi barədə....18
Şifahi çıxışların ¼ final mərhələsinin nəticələri....19
Şifahi çıxışların ¼ final mərhələsində iştirak edən hakimlər....20
**Şifahi çıxışların yarımfinal mərhələsi**....22
Şifahi çıxışların yarımfinal mərhələsi barədə....22
Şifahi çıxışların yarımfinal mərhələsinin nəticələri....22
Şifahi çıxışların yarımfinal mərhələsində iştirak edən hakimlər....23
**Şifahi çıxışların final mərhələsi**....24
Şifahi çıxışların final mərhələsi barədə....24
Şifahi çıxışların final mərhələsinin nəticələri....26
Şifahi çıxışların final mərhələsində iştirak edən hakimlər....26
**Qalib komandanın mülahizəsi**....28
**İkinci komandanın mülahizəsi**....29
**"Ən Yaxşı Natiq" nominasiyasının qalibindən**....30
**"Ən Yaxşı İddiaçı Memorandumu" nominasiyasının qaliblərindən**....31
**"Ən Yaxşı Cavabdeh Memorandumu" nominasiyasının qaliblərindən**....32
**Təşkilati Komitədən**....33

# Müəlliflərimizdən

Caspian International Law Moot Court yarış kazusunun əmələ gəlməsində rolu olan və kazusa düzəlişlər zamanı bizə dəstək olan bütün müəlliflərə xüsusi təşəkkürümüzü bildirir, onlardan bəzilərinin ümumi mülahizələrini sizinlə bölüşürük:

- Əkbər Əkbərov- Dövlət Dəniz və Liman Agentliyində aparıcı mütəxəssis

Dəniz hüququ ilə bağlı məhkəmə müsabiqəsinin keçirilməsindən xəbər tutduğum an çox sevinmişdim. Çünki bu sahənin mütəxəssisi olaraq dəniz hüququnun kifayət qədər maraqlı hüquq sahəsi olduğunu düşünürdüm və tələbələrdə bu sahəyə marağın olması çox sevindirici idi. Nəticə olaraq, Caspian International Law Moot Court müsabiqəsinin bir hissəsi olmaq, kazusda dəqiqləşdirmələr etmək, raundlarda hakim kimi iştirak etmək mənim üçün kifayət qədər dəyərli idi. Etiraf etməliyəm ki, müsabiqə boyunca tələbələrin göstərdiyi performans da təqdirəlayiq idi. Ümid edirəm ki, bu müsabiqə dəniz hüququna olan marağı daha da artıracaq və gələcəkdə də Caspian International Law Moot Court yarışının keçirilməsinin şahidi olacağıq. Çox istərdim ki, bu, artıq ənənə halını alsın. Sonda isə təşkilatçılara təşəkkür edir və bütün iştirakçılara gələcək fəaliyyətlərində uğurlar arzulayıram.

- İnci Məmmədli- Dublin Triniti Kollecində (Dublin Trinity College) beynəlxalq hüquq üzrə doktorant-tədqiqatçı, “Legalis IP” rəqəmsal hüquq platformasında aparıcı redaktor, European Journal of Legal Studies (EJLS)-də redaktor

Caspian International Law Moot Court müsabiqəsinin bir hissəsi olmaq mənim üçün dəyərli təcrübə oldu. Kazusa dair dəqiqləşdirmələrin verilməsi mərhələsində iştirak etmək, daha sonra isə iştirakçıların həmin məsələlər əsasında qurduqları hüquqi arqumentləri hakim kimi qiymətləndirmək olduqca maraqlı idi. Bu yarış bir daha göstərdi ki, moot court müsabiqələri tələbələrə hüquqi araşdırma, analitik düşüncə və peşəkar yazı bacarıqlarını inkişaf etdirmək üçün unikal imkan yaradır. Ümid edirəm ki, bu yarış iştirakçıların dəniz hüququna marağını daha da artıracaq və ALS gələcəkdə də ölkəmizdə beynəlxalq hüquq sahəsində güclü hüquqşünasların formalaşmasına töhfə verəcək. Təşkilatçılara bu təşəbbüsə görə təşəkkür edir, bütün iştirakçılara gələcək fəaliyyətlərində uğurlar və yarışın növbəti illərdə də uğurla davam etməsini arzulayıram.

- Araz Babazadə- “Prime Light” MMC-də Hüquq və xarici əlaqələr üzrə baş direktor

Beynəlxalq Dəniz Hüququ üzrə belə müsabiqələrin keçirilməsi çox təqdirəlayiqdir. Müsabiqə çərçivəsində həm kazusun tərtibi prosesində iştirak edərək şərhlər vermək, həm də

final mərhələsində hakim qismində çıxış etmək mənim üçün yaddaqalan bir təcrübə oldu. Beynəlxalq Dəniz Hüququna hüquq tələbələri arasında böyük marağın olduğunu görmək sevindiricidir və bu, gələcəkdə Xəzər Dənizinin hüquqi statusu, ərazi bölgüləri, ətraf mühitin qorunması və gəmi naviqasiyasının təhlükəsizliyi istiqamətində əlavə mütəxəssislərin yetişəcəyinə işarə edir. Müsabiqə iştirak edən hakim həmkarlarıma, təşkilatçılara və ən əsası bu müsabiqəni unudulmaz edən iştirakçı tələbələrə təşəkkürümü bildirirəm.

- Cavidan Hacızadə - Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi Şirkətinin hüquq departamentinin rəhbər müavini
- Tağı İbişov - Dövlət dəniz və liman agentliyində hüquq üzrə aparıcı mütəxəssis

# Caspian International Law Moot Court yarışının dəstəkçiləri

Caspian International Law Moot Court yarışının uğurla həyata keçirilməsində bizə dəstək olan bütün təşkilatlara dərin minnətdarlığımızı bildiririk. Bu layihənin ərsəyə gəlməsi, yüksək səviyyədə təşkil olunması və iştirakçılar üçün keyfiyyətli bir akademik platformaya çevrilməsi onların dəstəyi sayəsində mümkün olmuşdur.

Caspian International Law Moot Court yarışının təşkilində dəstək göstərən dəyərli tərəfdaşlarımız:

**ADA Student Services**

**Azərbaycan Xəzər Dəniz Gəmiçilik Şirkəti/Azerbaijan State Caspian Shipping Company**

**Dövlət Dəniz və Liman Agentliyi/State Maritime and Port Agency**

# Caspian International Law Moot Court barəsində

Caspian International Law Moot Court 2026-cı ildə “ADA Law Society”nin 2025-2026-cı il üzrə Heyətinin təşəbbüsü ilə təsis edilmiş və əsas diqqətini beynəlxalq hüquqa yönəldən ilk moot court yarışıdır. Bununla belə, bu yarışın yaranması ani bir qərarın nəticəsi deyil. Bu yarışı təşkil etmə ideyası təxminən yeddi il əvvəl formalaşmış, həmin dövrdən etibarən yarışın konsepsiyası, məqsədləri və təşkilati modeli üzərində ardıcıl şəkildə işlənmişdir.

ADA Law Society olaraq uzun müddət beynəlxalq standartlara uyğun bir moot court yarışının təşkili barədə düşünürdük. Lakin belə bir layihənin yüksək keyfiyyətlə həyata keçirilməsi üçün ciddi hazırlıq, planlaşdırma və təşkilati resurslar tələb olunurdu. Məhz buna görə də yarışın ilk buraxılışı 2026-cı ildə baş tutdu. Uzunmüddətli hazırlıq prosesinin nəticəsi olaraq Caspian International Law Moot Court yarışını uğurla həyata keçirdik və bu layihəni reallığa çevirdik.

Azərbaycanda indiyədək məhz beynəlxalq hüququ üzrə ixtisaslaşmış bir moot court yarışının mövcud olmaması “ADA Law Society”ni bu boşluğu doldurmağa təşviq etdi. Biz yalnız yeni bir yarış təşkil etməyi deyil, eyni zamanda ölkədə hüquq təhsilinə yeni istiqamət qazandırmağı, tələbələr üçün fərqli akademik platforma yaratmağı hədəflədik.

Bu layihəni birdəfəlik təşəbbüs kimi deyil, uzunmüddətli ənənəyə çevriləcək bir platforma kimi görürük. Qarşıdakı illərdə yarışın davamlı şəkildə keçirilməsi, iştirakçı və hakim kollektivinin genişləndirilməsi, beynəlxalq universitetlərin və hüquq mütəxəssislərinin cəlb olunması, həmçinin Caspian International Law Moot Court yarışını regionun aparıcı beynəlxalq moot court yarışlarından birinə çevrilməsi əsas hədəflərimizdəndir.

# Caspian International Law Moot Courtun ilk buraxılışı barədə

Yarışın ilk buraxılışı üçün nəzərdə tutulmuş kazus 06.06.2026-cı il tarixində elan edildi. 2026-cı il üzrə nəzərdə tutulmuş kazus dəniz hüququnun aktual və mürəkkəb məsələlərini əhatə edərək iştirakçıları həm Birləşmiş Millətlər Təşkilatının Dəniz Hüququ üzrə Konvensiyası (“UNCLOS”), həm də beynəlxalq məhkəmə və tribunalların formalaşdırdığı hüquqi praktikanı dərindən araşdırmağa sövq edirdi. Kazusda qabarma və çəkilmələrin dəniz sərhədlərinin müəyyən edilməsinə təsiri, arxipelaqların hüquqi statusu, eləcə də bu statusun dövlətlər üçün yaratdığı hüquq və öhdəliklər əsas mübahisə mövzuları kimi təqdim olunmuşdur.

Mübahisənin əsasını Arstotzka dövlətinin Kaltana məxsus T-572 nömrəli sualtı qayığını vurması, buna cavab olaraq isə Kaltanın Arstotzkaya məxsus bir gəmidə axtarış aparması təşkil edirdi. Bu hadisələr nəticəsində dövlətlər arasında beynəlxalq dəniz hüququ çərçivəsində hüquqi mübahisə yaranmış və tərəflər mübahisənin həlli üçün Dəniz Hüququ üzrə Beynəlxalq Tribunala (“ITLOS”) müraciət etmişlər.

İştirakçılar hər iki tərəfin maraqlarını müdafiə edərək UNCLOS-un müvafiq müddəalarını, beynəlxalq adət hüququnun normalarını və beynəlxalq məhkəmə təcrübəsini tətbiq etməklə hüquqi arqumentlərini əsaslandırmalı idilər. Bu baxımdan kazus iştirakçılardan yalnız nəzəri bilik deyil, həm də hüquqi araşdırma, analitik düşünmə və beynəlxalq hüququn praktik tətbiqi sahəsində yüksək bacarıq nümayiş etdirməyi tələb edirdi.

Yarışın qeydiyyatı 11.04.26-cı il tarixində açılmış və müxtəlif universitetləri təmsil edən 35 komanda iştirak üçün qeydiyyatdan keçmişdir.




Qeydiyyat mərhələsində təqdim olunan sualları uğurla cavablandıran 16 komanda növbəti mərhələ olan konsultasiya mərhələsinə vəsiqə qazanmışdır.



Konsultasiya mərhələsinin nəticələrinə əsasən, 12 komanda yazılı memorandum mərhələsinə keçmişdir.




Yazılı memorandum mərhələsində göstərilən nəticələr əsasında 8 komanda şifahi mərhələnin ilk raundu olan 1/4 final mərhələsində iştirak etmək hüququ əldə etmişdir.




1/4 final mərhələsindən sonra 4 komanda yarımfinal mərhələsində yarışmışdır.



Yarımfinal mərhələsinin nəticələrinə əsasən isə 2 komanda final mərhələsinə vəsiqə qazanmışdır. Final qarşılaşmasında ADA universitetinin 109 nömrəli komandası və Milli Aviasiya Akademiyasının 104 nömrəli komandaları qalib adı uğrunda mübarizə aparmışdır. 25.07.2026-cı il tarixində baş tutmuş final mərhələsində ADA universitetinin tələbələrindən təşkil olunan 109 nömrəli komanda qalib gəlmişdir




**Caspian International Moot Court yarışının final mərhələsi, ADA Universiteti, C large auditorium**

# Konsultasiya mərhələsi

## Konsultasiya barədə

Konsultasiya mərhələsi ADA Law Society tərəfindən əsası qoyulan, müsabiqənin ənənəvi yazılı memorandum və şifahi çıxış mərhələlərindən əvvəl baş tutan, iştirakçıların yalnız hüquqi biliklərini deyil, həmçinin hüquqi məsləhət vermək, düzgün suallar formalaşdırmaq, faktları təhlil etmək və müştəri ilə effektiv ünsiyyət qurmaq bacarıqlarını qiymətləndirmək məqsədi daşıyan yeni və özünəməxsus mərhələ olmuşdur. Konsultasiya mərhələsi 02.05.2026-cı il tarixində ADA Universitetində keçirilmişdir.

İştirakçılar konsultasiya üçün hazırlanmış kazusun faktları ilə konsultasiya görüşü zamanı tanış olmuş, qısa müddət ərzində məlumatları təhlil edərək müştəri qismində çıxış edən təşkilati komitənin üzvünün suallarını cavablandırmış və mümkün hüquqi həll yollarını təqdim etmişdir. 2 hakimdən ibarət tərkibdə olan mütəxəssislər isə komandaların fəaliyyətini qiymətləndirmişdir.

Mərhələnin əsas xususiyyətlərindən biri iştirakçıların əvvəlcədən hazırlanmış mövqe və arqumentlərə əsaslanmadan, situasiyaya operativ reaksiya vermək və müstəqil hüquqi düşünmək bacarığının yoxlanılması olmuşdur. Maksimum 25 dəqiqəlik müddət isə məhdud zaman çərçivəsində komanda üzvlərinin effektiv hüquqi məsləhət vermək bacarığını ön plana çıxarmışdır.

Qiymətləndirmə zamanı komandaların hüquqi rəyinin əsaslılığı, verdikləri sualların və dəqiqləşdirmələrin tutarlılığı, komanda üzvlərinin prosesdə iştirakı və inandırıcılıq qabiliyyəti hakimlər tərəfindən nəzərə alınmışdır. Nəticələrə əsasən, reytinq üzrə 16 komandadan ilk 12 yerdə qərarlaşan 101, 103, 104, 105, 106, 108, 109, 110, 111, 112, 114 və 115 nömrəli komandalar müsabiqənin növbəti—yazılı memorandum mərhələsində iştirak etmək hüququ əldə etmişdir.

## Konsultasiya mərhələsinin nəticələri

Konsultasiya mərhələsinin nəticələri iştirakçıların çıxışlarının iki hakim tərəfindən verilmiş qiymətlərinin ədədi ortası əsasında müəyyən edilmişdir.

| Komanda nömrəsi | Hakim 1 | | | hakim 1 ədədi orta | Hakim 2 | | | hakim 2 ədədi orta | Yekun bal (hakim 1+hakim 2)/2 |
|---|---|---|---|---|---|---|---|---|---|
| | Üzv 1 | Üzv 2 | Üzv 3 | | Üzv 1 | Üzv 2 | Üzv 3 | | |
| 111 | 89 | 90 | - | 89,5 | 86 | 86 | - | 86 | 87,75 |
| 104 | 87 | 84 | 87 | 86 | 86 | 87 | 85 | 86 | 86 |
| 108 | 90 | 89 | 85 | 88 | 77 | 77 | 76 | 76,7 | 82,35 |
| 112 | 68 | 80 | 91 | 79,7 | 70 | 83 | 95 | 82,7 | 81,2 |
| 105 | 85 | 82 | 85 | 84 | 70 | 75 | 79 | 74,7 | 79,35 |
| 103 | 90 | 89 | 84 | 87,7 | 66 | 66 | 66 | 66 | 76,85 |
| 110 | 93 | 89 | 63 | 81,7 | 77 | 74 | 53 | 68 | 74,85 |
| 106 | 73 | 73 | - | 73 | 73 | 80 | - | 76,5 | 74,75 |
| 101 | 83 | 63 | 82 | 76 | 73 | 65 | 72 | 70 | 73 |
| 114 | 30 | 70 | - | 50 | 88 | 73 | - | 80,5 | 65,25 |
| 115 | 55 | 55 | - | 55 | 75 | 75 | - | 75 | 65 |
| 109 | 62 | 63 | 56 | 60,3 | 65 | 75 | 63 | 67,7 | 64 |
| 113 | 50 | 50 | - | 50 | 71 | 71 | - | 71 | 60,5 |
| 107 | 30 | 37 | 37 | 34,7 | 38 | 52 | 58 | 49,3 | 42 |
| 116 | 1 | 16 | 2 | 6,3 | 48 | 78 | 73 | 66,3 | 36,3 |
| 102 | Konsultasiya mərhələsində iştirak etmədiyindən diskvalifikasiya edilmişdir. | | | | | | | | |

## Konsultasiya mərhələsində iştirak edən hakimlər

Konsultasiya mərhələsinin keçirilməsində hakimlərin vaxt ayırması, iştirakçıların hüquqi yanaşmalarını diqqətlə qiymətləndirməsi və peşəkar təcrübələrini müsabiqə iştirakçıları ilə bölüşməsi mərhələnin uğurlu keçirilməsində mühüm rol oynamışdır. “ADA Law Society” olaraq hər bir hakimə göstərdikləri dəstəyə, obyektiv qiymətləndirməyə və müsabiqənin inkişafına verdikləri töhfəyə görə dərin təşəkkürümüzü bildiririk.

| | |
|---|---|
| Nurlan Babayev | Azərbaycan Respublikasının Maliyyə Monitorinqi Xidmətinin Şöbə müdiri, ADA Universitetinin müəllimi |
| Rəşid Əliyev | “Remells Law Firm”-də hüquqşünas, ADA Universitetinin müəllimi |
| Nazlı Əhmədova | “Apex Advisors” şirkətinin təsisçisi və rəhbəri, Bakı Arbitraj Mərkəzinin İdarə heyətinin üzvü |
| Nail Axundzadə | “EURASIA Transport and Terminals” şirkətində Hüquq və Komplayens direktoru |
| Rəna Əminova | “Dentons” Azərbaycan şirkətində hüquq məsləhətçisi |
| Nərmin Seyidova | “De Novo Advisors” şirkətinin partnyoru |
| Aytən Teymurzadə-Məmmədova | “KPMG” Azərbaycan şirkətində hüquq meneceri |
| Əliyar Quliyev | “Facility Management Group” (FMG) şirkətində aparıcı hüquq məsləhətçisi |




**Caspian International Moot Court yarışının Konsultasiya mərhələsi, ADA Universiteti**

# Kazusun elan edilməsindən sonrakı onlayn təlim

Kazus elan edildikdən sonra, 18.05.2026-cı il tarixində İnci Məmmədli tərəfindən dəniz hüququ mövzusunda onlayn təlim təşkil olunmuşdur. Təlim zamanı təqdimatçı dəniz hüququnun əsas prinsipləri, beynəlxalq hüquqi çərçivəsi və kazusla əlaqəli mühüm hüquqi məsələlər barədə ətraflı məlumat vermiş, iştirakçıların suallarını cavablandıraraq onlarla praktiki yanaşmalarını bölüşmüşdür. İnci Məmmədlinin zəngin bilik və təcrübəsi iştirakçı komandaların mövzuya daha dərindən yiyələnməsinə və memoranduma hazırlıq prosesində hüquqi arqumentlərini daha əsaslı şəkildə formalaşdırmasına əhəmiyyətli töhfə vermişdir. Təlimin sonunda isə təqdimatçı hazırladığı təqdimat materiallarını da iştirakçılarla bölüşərək onların sonrakı hazırlıq mərhələsində istifadə edə biləcəkləri faydalı resurs təqdim etmişdir. Təlimə ayırdığı vaxt və dəyərli təcrübəsini iştirakçılarla bölüşdüyü üçün İnci Məmmədliyə təşəkkürümüzü bildiririk.

# Yazılı memorandum mərhələsi

## Yazılı memorandum mərhələsi barədə

Komandalar müsabiqənin qaydalarına uyğun olaraq həm iddiaçı, həm də cavabdeh tərəf üzrə yazılı memorandumlarını təqdim etmişdirlər. Hər bir komandanın iddiaçı və cavabdeh qismində təqdim etdiyi memorandumlar ayrılıqda qiymətləndirilmişdir. Hər bir memorandum üç hakimdən ibarət heyət tərəfindən 110 bal üzərindən qiymətləndirilmişdir. Qiymətləndirmə başa çatdıqdan sonra hər bir memorandum üzrə üç hakim tərəfindən verilmiş balların ədədi ortası hesablanmış və nəticə müvafiq memorandumun yekun balı kimi qəbul edilmişdir.

## Yazılı memorandum mərhələsinin nəticələri

| Komanda nömrəsi | İddiaçı memorandumunun balı | | | İddiaçı memo ümumi bal | Cavabdeh memorandumunun balı | | | Cavabdeh memo ümumi bal | Yekun bal |
|---|---|---|---|---|---|---|---|---|---|
| | Hakim 1 | Hakim 2 | Hakim 3 | | Hakim 1 | Hakim 2 | Hakim 3 | | |
| 110 | 99 | 99 | 84 | 94 | 84 | 100 | 80 | 88 | 91 |
| 104 | 97 | 79 | 85 | 87 | 88 | 94.5 | 87 | 89.8 | 88.4 |
| 105 | 88 | 93 | 98 | 93 | 75.5 | 89 | 83 | 82.5 | 87.8 |
| 109 | 88 | 93 | 91 | 90.7 | 90 | 80 | 70 | 80 | 85.3 |
| 112 | 90 | 91 | 89 | 90 | 75 | 78.5 | 82 | 78.5 | 84.3 |
| 101 | 77 | 94 | 77 | 82.7 | 76 | 77 | 77 | 76.7 | 79.7 |
| 103 | 65 | 69 | 82 | 72 | 60 | 84 | 69 | 71 | 71.5 |
| 111 | 75 | 71.5 | 55 | 67.2 | 78 | 61 | 81 | 73.3 | 70.3 |
| 106 | Müəyyən edilmiş tarixədək tələb edilən yazılı memorandumları təqdim etmədiklərinə görə diskvalifikasiya edilmişdirlər. | | | | | | | | |
| 108 | Müəyyən edilmiş tarixədək tələb edilən yazılı memorandumları təqdim etmədiklərinə görə diskvalifikasiya edilmişdirlər. | | | | | | | | |
| 114 | Müəyyən edilmiş tarixədək tələb edilən yazılı memorandumları təqdim etmədiklərinə görə diskvalifikasiya edilmişdirlər. | | | | | | | | |
| 115 | Müəyyən edilmiş tarixədək tələb edilən yazılı memorandumları təqdim etmədiklərinə görə diskvalifikasiya edilmişdirlər. | | | | | | | | |

## Yazılı memorandum mərhələsində iştirak edən hakimlər

Caspian International Law Moot Court müsabiqəsinin yazılı mərhələsində təqdim edilmiş yazılı memorandumların diqqətlə yoxlanılaraq iştirakçıların arqumentlərinin obyektiv şəkildə dəyərləndirilməsində iştirak etdikləri üçün hər bir hakimə dərin təşəkkürümüzü bildiririk.

| | |
|---|---|
| Əmrah Rəhmanov | Maliyyə Monitorinqi Xidmətinin Qanunvericilik və Məhkəmə İşləri Şöbəsinin Rəhbəri |
| Əkbər Əkbərov | Dövlət Dəniz və Liman Agentliyində aparıcı mütəxəssis |
| Əjdər Allahverdiyev | Dövlət Neft Şirkətində (SOCAR) hüquq məsləhətçisi |
| Elnarə Yusibova | 4SİM Azərbaycanda hüquqşünas |
| Elmir Miriyev | Türk İnvestisiya Fondunda hüquq köməkçisi |
| Elvin Əkbərzadə | Qarabağ Universitetinin Philip C. Jessup Beynəlxalq Hüquq Məhkəmə Simulyasiyası Müsabiqəsi Komandasının məsləhətçisi |
| İlham Qasımov | Esseks Universitetində hüquq üzrə fəlsəfə doktoru |
| İnci Məmmədli | Dublin Triniti Kollecində (Dublin Trinity College) beynəlxalq hüquq üzrə doktorant-tədqiqatçı, “Legalis IP” rəqəmsal hüquq platformasında aparıcı redaktor, European Journal of Legal Studies (EJLS)-də redaktor |
| Cavid Rəhimli | Qarabağ Universitetinin Philip C. Jessup Beynəlxalq Hüquq Məhkəmə Simulyasiyası Müsabiqəsi Komandasının baş məşqçisi, Qarabağ Universitetində Beynəlxalq İctimai Hüquq üzrə müəllim |
| Jalə Rəhimova | “Xalq Bank”-da hüquqşünas |
| Kənan Mədətli | “PASHA Investments” MMC-nin hüquq departamentinin meneceri |
| Mehman Əliyev | Maliyyə Monitorinqi Xidmətinin Hüquq departamentinin rəhbəri |
| Nail Axundzadə | “EURASIA Transport və Terminals” şirkətində hüquq və komplayens direktoru |
| Nigar Yusifova | “KPMG” Azərbaycanda hüquqşünas |
| Nişat Rəhimov | Dövlət Dəniz və Liman Agentliyinin Hüquq bölməsinin rəhbəri |
| Nurlan Babayev | Maliyyə Monitorinqi Xidmətinin Şöbə Müdiri, ADA Universitetinin müəllimi |
| Qumral Aslanova | “BHM” Hüquq Bürosunda Baş hüquq məsləhətçisi |
| Ramidə İsmayılova | Dövlət Tibbi-Sosial Ekspertiza və Reabilitasiya Agentliyində baş mütəxəssis |
| Rübabə Abdulla- Məmmədova | “SOCAR Cape” MMC-nin Hüquq və Komplayens Departamentinin rəhbəri, Bakı Dövlət Universitetinin müəllimi |

| | |
|---|---|
| Suma Süleymanova | “Dentons” Azərbaycan şirkətində kiçik hüquqşünas |
| Xəqani Quliyev | Avropa İnsan Hüquqları Məhkəməsinin Katibliyində baş hüquqşünas |
| Xəyyam Sultanlı | “ALKAGESTA” şirkətində aparıcı hüquqşünas |
| Yeganə Məmmədova | “PASHA” Bankda hüquqşünas |
| Zeynəb Quluzadə | Ədliyyə Nazirliyinin elmi işçisi, ADA Universitetinin müəllimi |

# Şifahi çıxışların ¼ final mərhələsi

## Şifahi çıxışların ¼ final mərhələsi barədə

Caspian International Law Moot Court yarışının ¼ final mərhələsi 11.07.2026-cı il tarixində, ADA universitetində keçirilmiş, yazılı memorandum mərhələsinin nəticələrinə əsasən ən yüksək bal toplayan 8 komanda bu mərhələdə iştirak etmək hüququ qazanmışdır. ¼ final mərhələsində 101, 103, 104, 105, 109, 110 və 112 nömrəli komandalar yarımfinal mərhələsinə vəsiqə qazanmaq uğrunda mübarizə aparmışdır. 111 nömrəli komanda isə ¼ final mərhələsində iştirak etməkdən imtina etmişdir.

¼ final mərhələsində komandalar 3 hakimdən ibarət tərkib qarşısında həm iddiaçı, həm də cavabdeh qismində çıxış etmişdir. Qiymətləndirmə zamanı komandaların hər iki mövqe üzrə nümayiş etdirdiyi nəticələrin və yazılı memorandumlarının nəticələrinin ədədi ortası əsas götürülmüşdür. Hakimlər çıxışları hüquqi arqumentlərin əsaslandırılması, natiqlik və təqdimat bacarıqları, məntiqi ardıcıllıq və mövqenin inandırıcı şəkildə müdafiə olunması meyarları əsasında qiymətləndirmişdir.

Gərgin və rəqabətli mübarizənin sonunda 104, 109, 110 və 112 nömrəli komandalar uğurlu çıxış nümayiş etdirərək yarımfinal mərhələsinə keçməyə vəsiqə qazanmışdır.

## Şifahi çıxışların ¼ final mərhələsinin nəticələri

Şifahi çıxışların ¼ final mərhələsinin nəticələri komandaların iddiaçı və cavabdeh qismində əldə etdikləri çıxış balları ilə yazılı memorandum üzrə nəticələrinin ədədi ortası əsasında müəyyən edilmişdir.

| Komanda nömrəsi | İddiaçı balı | | | | | | | | İd. Bal ədədi orta | Cavabdeh balı | | | | | | | | Cav. Bal ədədi orta | İ+C ədədi orta | Yazılı memo balı ədədi orta | Yekun bal |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| | 1-ci çıxışçı | | | ədədi orta | 2-ci çıxışçı | | | ədədi orta | | 1-ci çıxışçı | | | Cəm ədədi orta | 2-ci çıxışçı | | | Cəm ədədi orta | | | | |
| | H1 | H2 | H3 | | H1 | H2 | H3 | | | H1 | H2 | H3 | | H1 | H2 | H3 | | | | | |
| 109 | 86 | 91 | 90 | 89 | 88 | 90 | 95 | 91 | 90 | 99 | 87 | 96 | 94 | 93 | 76 | 80 | 83 | 88,5 | 89,3 | 85,3 | 87,3 |
| 110 | 65 | 64 | 64 | 64,3 | 89 | 83 | 72 | 81,3 | 72,8 | 98 | 92 | 92 | 94 | 94 | 86 | 89 | 89,7 | 91,9 | 82,4 | 91 | 86,7 |
| 112 | 73 | 82 | 86 | 80,3 | 86 | 87 | 91 | 88 | 84,2 | 98 | 90 | 89 | 92,3 | 95 | 86 | 92 | 91 | 91,7 | 87,95 | 84,3 | 86,13 |
| 104 | 66 | 70 | 74 | 70 | 74 | 80 | 76 | 76,7 | 73,4 | 89 | 88 | 90 | 89 | 92 | 86 | 93 | 90,3 | 89,7 | 81,6 | 88,4 | 85 |
| 105 | 85 | 89 | 87 | 87 | 76 | 71 | 67 | 71,3 | 79,2 | 46 | 63 | 30 | 46,3 | 44 | 63 | 24 | 43,7 | 45 | 62,1 | 87,8 | 74,95 |
| 101 | 45 | 60 | 22 | 42,3 | 52 | 79 | 73 | 68 | 55,2 | 55 | 68 | 69 | 64 | 78 | 80 | 79 | 79 | 71,5 | 63,4 | 79,7 | 71,55 |
| 103 | 57 | 48 | 50 | 51,7 | 67 | 64 | 57 | 62,7 | 57,2 | 78 | 74 | 79 | 77 | 78 | 81 | 75 | 78 | 77,5 | 67,4 | 71,5 | 69,45 |
| 111 | ¼ final mərhələsində iştirak etməkdən imtina etmişdir | | | | | | | | | | | | | | | | | | | | |

## Şifahi çıxışların ¼ final mərhələsində iştirak edən hakimlər

¼ finalın keçirilməsində hakimlərin vaxt ayırması, iştirakçıların hüquqi yanaşmalarını diqqətlə qiymətləndirməsi və peşəkar təcrübələrini müsabiqə iştirakçıları ilə bölüşməsi mərhələnin uğurlu keçirilməsində mühüm rol oynamışdır. ADA Law Society olaraq hər bir hakimə göstərdikləri dəstəyə, obyektiv qiymətləndirməyə və müsabiqənin inkişafına verdikləri töhfəyə görə dərin təşəkkürümüzü bildiririk.

| | |
|---|---|
| Rübabə Abdulla-Məmmədova | "SOCAR Cape" MMC-nin Hüquq və Komplayens Departamentinin rəhbəri, Bakı Dövlət Universitenin müəllimi |
| Elvin Əkbərzadə | Qarabağ Universitetinin Philip C. Jessup Beynəlxalq Hüquq Məhkəmə Simulyasiyası Müsabiqəsi Komandasının məsləhətçisi |
| Əkbər Əkbərov | Dövlət Dəniz və Liman Agentliyinin aparıcı mütəxəssisi |
| İlahə Muradzadə | "MGB Law Offices"-də Kiçik hüquqşünas |
| Zeynəb Quluzadə | Ədliyyə Nazirliyinin elmi işçisi, ADA Universitetinin müəllimi |
| Cavid Rəhimli | Qarabağ Universitetinin Philip C. Jessup Beynəlxalq Hüquq Məhkəmə Simulyasiyası Müsabiqəsi Komandasının baş məşqçisi, Qarabağ Universitetində Beynəlxalq İctimai Hüquq üzrə müəllim |
| Alsu Kərimova | "Legalize" hüquq şirkətində hüquqşünas |
| Elnarə Yusibova | "4SİM" Azərbaycanda hüquqşünas |
| İbrahim İsmayılov | "PwC" Azərbaycan şirkətində hüquq məsləhətçisi |
| Nigar Yusifova | "KPMG" Azərbaycanda hüquqşünas |
| Nurlan Babayev | Maliyyə Monitorinqi Xidmətinin Şöbə Müdiri, ADA Universitetinin müəllimi |
| Ramidə İsmayılova | Dövlət Tibbi-Sosial Ekspertiza və Reabilitasiya Agentliyində baş mütəxəssis |
| Suma Süleymanova | "Dentons" Azərbaycanda kiçik hüquqşünas |
| Absalam Məmmədov | Avropa İnsan Hüquqları Məhkəməsində (AİHM) hüquqşünas assistenti və Ali Məhkəmənin İnzibati Kollegiyasında sədr köməkçisi |
| Mehman Əliyev | Maliyyə Monitorinqi Xidmətinin Hüquq departamentinin rəhbəri |
| Mehran Əmirli | "SOCAR"-da xüsusi hüquq məsləhətçisi |
| Qumral Aslanova | "BHM" Hüquq Şirkətində Baş hüquq məsləhətçi |
| Zəhra Yusifova | "MGB Law Offices"-də kiçik hüquqşünas |

| | |
|---|---|
| Yeganə Məmmədova | "PASHA" Bankda hüquqşünas |
| Əjdər Allahverdiyev | Dövlət Neft Şirkətində (SOCAR) hüquq məsləhətçisi |
| Jalə Ələsgərova | Ələt Azad İqtisadi Zonasının səlahiyyətli qurumunda aparıcı hüquqşünas |
| Əfsan Kazımov | "Dentons" Azərbaycan şirkətində kiçik hüquqşünas |









**Caspian International Moot Court Yarışının ¼ final mərhələsi, ADA Universiteti**

# Şifahi çıxışların yarımfinal mərhələsi

## Şifahi çıxışların yarımfinal mərhələsi barədə

Şifahi çıxışların yarımfinal mərhələsi 18.07.2026-cı il tarixində, ADA universitetində baş tutmuşdur. 1/4 final mərhələsinin nəticələrinə əsasən ən yüksək bal toplamış ilk 4 komanda yarımfinal mərhələsində iştirak etmişdir. Bu mərhələdə 104, 109, 110 və 112 nömrəli komandalar final mərhələsinə keçmək uğrunda mübarizə aparmışdır.

Püşkatma yolu ilə müəyyən edilmiş mövqelərə uyğun olaraq komandalar yalnız 1 mövqedə çıxış etmiş, hüquqi arqumentlərini əsaslandırmış və hakimlər tərəfindən ünvanlanan suallara cavab vermişdir. Komandaların hüquqi arqumentləri məntiqi və ardıcıl şəkildə təqdim etmək, suallara əsaslandırılmış cavablar vermək, habelə müdafiə etdikləri mövqeni inandırıcı şəkildə əsaslandırmaq bacarıqları 3 hakimdən ibarət tərkib tərəfindən qiymətləndirilmişdir.

Qiymətləndirmənin nəticələrinə əsasən, öz raundlarında ən yüksək bal toplamış 2 komanda yarımfinal mərhələsinin qalibi olaraq müsabiqənin final mərhələsinə vəsiqə qazanmışdır. Nəticədə, Milli Aviasiya Akademiyasının 104 və ADA universitetinin 109 nömrəli komandası final mərhələsinə yüksəlmişdir.

## Şifahi çıxışların yarımfinal mərhələsinin nəticələri

Yarımfinal mərhələsinin nəticələri hər 2 çıxışçıya 3 hakim tərəfindən verilmiş qiymətlərin ədədi ortası əsasında müəyyən edilmişdir.

| **Komanda nömrəsi** | **İddiaçı balı** | | | | | | | | **İd. Bal Ədədi orta** | **Cavabdeh balı** | | | | | | | | **Cav. Bal Ədədi Orta** | **Yekun** |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| | 1-ci çıxışçı | | | **Ədədi orta** | 2-ci çıxışçı | | | **ədədi orta** | | 1-ci çıxışçı | | | **Ədədi orta** | 2-ci çıxışçı | | | **ədədi orta** | | |
| | H 1 | H 2 | H 3 | | H 1 | H 2 | H 3 | | | H 1 | H 2 | H 3 | | H 1 | H 2 | H 3 | | | |
| 109 C | - | - | - | - | - | - | - | - | - | 98 | 94 | 98 | **96.7** | 95 | 98 | 97 | **96.7** | 96.7 | 96.7 |
| 104 İ | 80 | 91 | 93 | **88** | 79 | 87 | 96 | **87.3** | 87.65 | - | - | - | - | - | - | - | - | - | 87.65 |
| 110 C | - | - | - | - | - | - | - | - | - | 78 | 72 | 94 | **81.3** | 88 | 87 | 100 | **91.7** | 86,5 | 86.5 |
| 112 İ | 82 | 86 | 89 | **85.7** | 85 | 88 | 85 | **86** | 85.85 | - | - | - | - | - | - | - | - | - | 85.85 |

## Şifahi çıxışların yarımfinal mərhələsində iştirak edən hakimlər

Müsabiqənin yarımfinal mərhələsinin uğurla başa çatmasına töhfə verdiklərinə görə hər bir hakimimizə dərin minnətdarlığımızı bildiririk.

| | |
|---|---|
| Kənan Mədətli | "PASHA Investments" (PASHA Investments LLC) şirkətində hüquq departamentinin rəhbəri |
| İnci Məmmədli | Dublin Triniti Kollecində (Dublin Trinity College) beynəlxalq hüquq üzrə doktorant-tədqiqatçı, "Legalis IP" rəqəmsal hüquq platformasında aparıcı redaktor, European Journal of Legal Studies (EJLS)-də redaktor |
| Ramidə İsmayılova | Dövlət Tibbi-Sosial Ekspertiza və Reabilitasiya Agentliyində aparıcı mütəxəssis |







**Caspian International Moot Court Yarışının yarımfinal mərhələsi, ADA Universiteti**

# Şifahi çıxışların final mərhələsi

## Şifahi çıxışların final mərhələsi barədə

Şifahi çıxışların final mərhələsi müsabiqənin son mərhələsi olmuş, 25.07.2026-cı il tarixində ADA Universitetinin C Large Auditorium zalında keçirilmişdir. Yarımfinal mərhələsinin nəticələrinə əsasən raund üzrə ən yüksək nəticə göstərən iki komanda—104 və 109 nömrəli komandalar— final mərhələsində iştirak etmək hüququ əldə etmişdir. Püşkatmanın nəticəsinə əsasən, 109 nömrəli komanda cavabdeh, 104 nömrəli komanda isə iddiaçı mövqeyindən çıxış etmişdir. Final mərhələsində komandaların çıxışları Zaur Nağıyev, Nişat Rəhimov, Vilayət Qədirov, Kamil Vəliyev və Araz Babazadədən təşkil olunan beş hakimdən ibarət tərkib tərəfindən qiymətləndirilmişdir. Final mərhələsinin nəticələrinə əsasən 109 nömrəli komanda müsabiqənin qalibi elan edilmiş, 104 nömrəli komanda isə ikinci yerə layiq görülmüşdür. Müsabiqənin yekununda komandaların və iştirakçıların göstərdikləri fərdi və komanda nailiyyətləri xüsusi nominasiyalar üzrə də qiymətləndirilmişdir.

Final mərhələsinin sonunda keçirilən mükafatlandırma mərasimində müsabiqənin qalibi olan komandaya "CILMC Çempion Kuboku", ikinci yerə layiq görülən komandaya isə "İkincilik Kuboku" təqdim edilmişdir.Yarışın finalçıları həmçinin Dövlət Dəniz və Liman Agentliyində və Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi Qapalı Səhmdar Cəmiyyətində təcrübə keçmək imkanı əldə etmişdir.

Bununla yanaşı, şifahi çıxışlar üzrə ən yüksək bal toplamış iştirakçı "Ən Yaxşı Natiq", iddiaçı qismində təqdim edilmiş memorandumlar üzrə ən yüksək ümumi balı əldə etmiş komanda "Ən Yaxşı İddiaçı Memorandumu", cavabdeh qismində təqdim edilmiş memorandumlar üzrə ən yüksək ümumi balı əldə etmiş komanda isə "Ən Yaxşı Cavabdeh Memorandumu" nominasiyaları üzrə mükafatlandırılmışdır.

| | |
|---|---|
| “CILMC Çempion kuboku” nominasiyasının qalibi | ADA Universitetinin tələbələrindən ibarət 109 nömrəli komanda<br><br>Alimə Əliyeva, Nigar Məhərrəmova, Ümid Yusifli, Yaqub Rzayev, Fərid Əhmədli, Zeynəb Mirzəzadə |
| “İkincilik kuboku” nominasiyasının qalibi | Milli Aviasiya Akademiyasının tələbələrindən ibarət 104 nömrəli komanda<br><br>İlahə Səmədova, Həmayıl Sadıqova, Nuray Kərimli, Fatimə Dadaşova |
| “Ən yaxşı Natiq” nominasiyasının qalibi | ADA Universitetinin tələbəsi Nigar Məhərrəmova |
| “Ən yaxşı İddiaçı Memorandumu” nominasiyasının qalibi | Bakı Dövlət Universitetinin tələbələri və Qarabağ Universitetinin tələbəsindən ibarət 110 nömrəli komanda<br><br>Camal Rzayev (BDU), Ayan Zeynalova (BDU), Fəridə Rəşidzadə (BDU), Nuray Bağırlı (QU) |
| “Ən yaxşı Cavabdeh Memorandumu” nominasiyasının qalibi | Milli Aviasiya Akademiyasının tələbələrindən ibarət 104 nömrəli komanda<br><br>İlahə Səmədova, Həmayıl Sadıqova, Nuray Kərimli, Fatimə Dadaşova |

## Şifahi çıxışların final mərhələsinin nəticələri

Şifahi çıxışların final mərhələsinin nəticələri hər 2 çıxışçıya 5 hakim tərəfindən verilmiş qiymətlərin ədədi ortası əsasında müəyyən edilmişdir.

| Komanda nömrəsi | 1-ci çıxışçı | | | | | Ədədi orta | 2-ci çıxışçı | | | | | Ədədi orta | Cəm |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| | Hakim 1 | Hakim 2 | Hakim 3 | Hakim 4 | Hakim 5 | | Hakim 1 | Hakim 2 | Hakim 3 | Hakim 4 | Hakim 5 | | |
| 109C | 98 | 78 | 97 | 100 | 91 | 92.8 | 91 | 69 | 96 | 91 | 61 | 81.6 | 87.2 |
| 104İ | 87 | 72 | 95 | 95 | 84 | 86.6 | 75 | 69 | 95 | 98 | 65 | 80.4 | 83.5 |

## Şifahi çıxışların final mərhələsində iştirak edən hakimlər

Müsabiqənin final mərhələsinin uğurla başa çatmasına töhfə verdiklərinə görə hər bir hakimimizə dərin minnətdarlığımızı bildiririk.

| | |
|---|---|
| Zaur Nağıyev | Azərbaycan Xəzər Dəniz Gəmiçiliyində İdarə Heyətinin üzvü; ADA Universitetinin müəllimi |
| Nişat Rəhimov | Dövlət Dəniz və Liman Agentliyinin Hüquq bölməsinin rəhbəri |
| Vilayət Qədirov | Dövlət Dəniz və Liman Agentliyinin Hüquq məsələləri üzrə direktoru |
| Kamil Vəliyev | Bakı Arbitraj Mərkəzinin İdarə Heyətinin üzvü və “Dentons” Şirkətinin İdarəedici Partnyoru; ADA Universitetinin müəllimi |
| Araz Babazadə | “Prime Light” MMC-də Hüquq və xarici əlaqələr üzrə baş direktor |
















**Caspian International Moot Court yarışının final mərhələsi, ADA Universiteti, C large auditorium**

# Qalib komandanın mülahizəsi

Komandamızı formalaşdırarkən bizi ən çox narahat edən məqamlardan biri hamımızın birinci kursu yenicə bitirməsi idi. Qarşılaşdığımız hüquq sahəsi bizim üçün tamamilə yeni idi və müsabiqədə uğur qazanmaq üçün, xüsusilə də beynəlxalq hüquq üzrə, kifayət qədər dərin biliklərə ehtiyac duyulurdu. Buna baxmayaraq, böyük həvəs və öyrənmək istəyi ilə bu yola başladıq.

Memorandumların təqdim edilməsi üçün son tarix yaxınlaşdıqca bu həvəsin yerini müəyyən qədər narahatlıq və özümüzü şübhə aldı. İddiaçı və cavabdeh tərəf üzrə memorandumlarımızı son saatlarda təqdim etdikdən sonra, nə qədər çalışmış və geniş araşdırma aparmış olsaq da, rəqiblərimizin bizdən daha təcrübəli ola biləcəyini və işimizin kifayət qədər güclü olmadığını düşünürdük. Lakin şifahi raund mərhələsinə seçildiyimizi öyrəndiyimiz an bütün bu şübhələr öz yerini böyük sevinc və motivasiyaya verdi. Bu mərhələdən sonra özümüzə olan inamımız daha da artdı və şifahi çıxışlara daha ciddi və məqsədyönlü şəkildə hazırlaşmağa başladıq.

Bu müsabiqədən əldə etdiyimiz ən xoş təəssüratlardan biri birinci kursu yenicə başa vurmuş tələbələr olaraq müəyyən stereotipləri və özümüzə qoyduğumuz məhdudiyyətləri aşa bilməyimiz oldu. Müsabiqə bizə göstərdi ki, təcrübənin azlığı həvəs, zəhmət, düzgün komanda işi və öyrənmək istəyi ilə kompensasiya oluna bilər.

Gələcək komandalara tövsiyəmiz isə çox sadədir: özünüzə və komandanıza inanmaqdan heç vaxt çəkinməyin. Unutmayın ki, insanın qarşısına qoyduğu məqsədə çatmasına mane olan ən böyük sərhəd çox vaxt özünün müəyyən etdiyi sərhədlərdir. Biz bu müsabiqəyə demək olar ki, sıfır biliklə başladıq, lakin böyük həvəs, zəhmət, komanda ruhu və əzm sayəsində onu qalib kimi başa vurduq. Buna görə də, qarşınıza qoyduğunuz məqsəd üçün çalışdığınız müddətdə, insanın edə bilməyəcəyi heç bir şey yoxdur.

# İkinci komandanın mülahizəsi

Beynəlxalq Dəniz Hüququ üzrə Məhkəmə Simulyasiyasında (CILMC) komanda olaraq iştirak etmək və yekun nəticələrə əsasən 2-ci yeri tutmaq bizim üçün həm unudulmaz, həm də olduqca öyrədici təcrübə oldu. Beynəlxalq dəniz hüququnun tələbələr arasında nisbətən az tanınan sahə olması ilkin mərhələdə müəyyən tərəddüdlər yaratsa da, məhz bu sahəni araşdırmaq və yeni biliklər əldə etmək yarışmaya qoşulmaq üçün əsas motivasiyamız oldu. Hazırlıq prosesi çərçivəsində hüquqi kazus üzərində geniş araşdırmalar apardıq, yazılı memorandumlar hazırladıq və BMT-nin Dəniz Hüququ üzrə Konvensiyası (UNCLOS), Beynəlxalq Ədalət Məhkəməsi (İCJ) və Dəniz Hüququ üzrə Beynəlxalq Tribunal (ITLOS) presedentləri, habelə adət hüququ norma və prinsiplərinə əsaslanaraq mövqelərimizi formalaşdırdıq. Şifahi dinləmələr zamanı arqumentlərimizi hakim heyəti qarşısında müdafiə etmək, qarşı tərəfin mövqeyinə əsaslandırılmış cavablar vermək hüquqi düşüncə, araşdırma və natiqlik bacarıqlarımızın inkişafına mühüm töhfə verdi.

Xüsusilə son mərhələlərdə müsabiqə işi üzrə zəif mövqe hesab etdiyimiz iddiaçı tərəfi müdafiə etmək və müdafiə etdiyimiz dövlətin UNCLOS-a üzv olmaması bizi daha geniş araşdırmalar aparmağa sövq etdi. Məqalələr, beynəlxalq sənədlər və müxtəlif məhkəmə işlərini təhlil etməklə adət hüququnu daha dərindən öyrəndik. Yarışmanın dərslər və digər hüquqi fəaliyyətlərlə paralel davam etməsi vaxtın idarə olunmasını və düzgün iş bölgüsünü zəruri edirdi. Buna baxmayaraq, komanda işi sayəsində memorandumları vaxtında təqdim etdik və "Ən yaxşı Cavabdeh Memorandumu" nominasiyasının qalibi olduq.

CILMC-də 2-ci yeri qazanmaqla yanaşı, bu yarışmanın bizə qazandırdığı ən böyük nəticə əvvəllər demək olar ki, məlumatımız olmayan beynəlxalq dəniz hüququ sahəsində bilik və bacarıqlar əldə etməyimiz oldu. CILMC bizə hüquqi araşdırma aparmağı, mövqeləri əsaslandırmağı, qarşı tərəfin arqumentlərinə cavab verməyi və komanda şəklində çalışmağı öyrətdi. Bu səbəbdən hüquq tələbələrini belə yarışlarda iştirak etməkdən çəkinməməyə və ilk növbədə özlərinə, daha sonra komandalarına inanmağa çağırırıq. Belə bir imkan yaratdığı və hüquq tələbələrinə beynəlxalq dəniz hüququnu praktiki şəkildə öyrənmək fürsəti verdiyi üçün "ADA Law Society"-yə təşəkkürümüzü bildiririk.

# “Ən Yaxşı Natiq” nominasiyasının qalibindən

Beynəlxalq Dəniz Hüququ üzrə Məhkəmə Müsabiqəsində qalib komandanın üzvü olmaq mənim üçün böyük qürur və sevincdir. Lakin bu müsabiqədə qalib olmaqla yanaşı, ən yaxşı natiq seçilmək də müsabiqənin əvvəlindən qarşıma qoyduğum məqsədlərdən biri idi. Bu məqsədə çatacağıma inanır və hazırlıq prosesində hər çıxışımı bunun üçün bir addım kimi görürdüm.

Daha əvvəl auditoriya qarşısında müxtəlif çıxış təcrübələrim olmuş və natiqlik bacarığımın güclü tərəflərimdən biri olduğunu düşünmüşəm. Lakin məhkəmə müsabiqəsində çıxış etmək tamamilə fərqli bir təcrübə idi. Bütün şifahi mərhələlərdə çıxış etmək imkanım oldu və hər mərhələdən sonra hakimlərin nitqimlə bağlı rəyləri mənim üçün xüsusi əhəmiyyət daşıyırdı. Çıxışlarımda ən çox diqqət çəkən xüsusiyyətlərdən biri təmkinli olmağım və təzyiq altında emosiyalarımı qoruyaraq suallara cavab verməyim idi. Bununla yanaşı, nitqimin aydın və sabit struktur üzərində qurulmasına, fikirlərimin ardıcıl və axıcı şəkildə təqdim olunmasına xüsusi diqqət yetirirdim. Şifahi mərhələlərdən birində hakimlərdən birinin hələ birinci kursu yeni bitirmiş tələbə olaraq belə çıxış etməyimi böyük bacarıq kimi qiymətləndirməsi mənim üçün xüsusi anlardan biri oldu. Həmin rəy mənə növbəti çıxışlarım və gələcək müsabiqələr üçün də böyük motivasiya verdi. Bu yarış mənə bir daha göstərdi ki, bəzən nəticədən əvvəl özümüzü həmin nəticəyə layiq olduğumuza inandırmalıyıq.

Sonda bu uğurun arxasında dayanan komanda yoldaşlarıma-, dəyərli tövsiyələri və obyektiv rəyləri ilə inkişaf etməyimizə kömək edən hakimlərə, bizə bu təcrübəni yaşamaq və inkişaf etmək imkanı yaratdığı üçün “ADA Law Society”-yə təşəkkür edirəm.

# "Ən Yaxşı İddiaçı Memorandumu" nominasiyasının qaliblərindən

Beynəlxalq Dəniz Hüququ üzrə Məhkəmə Simulasiyası bizim üçün həm öyrədici, həm də çox maraqlı bir təcrübə oldu. Beynəlxalq hüquqa, xüsusilə dəniz hüququna daha yaxından bələd olmaq, müxtəlif hüquqi məsələləri araşdırmaq və bildiklərimizi praktik şəkildə tətbiq etmək imkanımız oldu. Qarşılaşdığımız hər yeni hüquqi sual bizi daha çox araşdırmağa, fərqli yanaşmaları nəzərdən keçirməyə və öz arqumentlərimizi daha yaxşı əsaslandırmağa vadar edirdi.

"Ən yaxşı İddiaçı Memorandumu" mükafatını qazanmağımız isə bu prosesin bizim üçün xüsusi nəticəsi oldu. Memorandumun hazırlanması zamanı əsas diqqətimizi yalnız çoxsaylı mənbələr toplamağa deyil, həmin mənbələr əsasında aydın, ardıcıl və inandırıcı hüquqi arqument qurmağa yönəltdik. Hesab edirik ki, yaxşı memorandumun əsasını ilk növbədə düzgün hüquqi sualın müəyyən edilməsi, mötəbər mənbələrin seçilməsi və hər bir hüquqi arqumentin faktlarla əlaqələndirilməsi təşkil edir. Xüsusilə beynəlxalq hüquq üzrə araşdırma apararkən müqavilə müddəaları ilə yanaşı, beynəlxalq məhkəmə və tribunal qərarlarına, dövlət praktikasına və digər mötəbər hüquqi mənbələrə diqqət yetirmək memorandumun inandırıcılığını əhəmiyyətli dərəcədə artırır. Bizim üçün digər vacib məqam isə qarşı tərəfin mövqeyini nəzərə almaq idi. Bu baxımdan memorandum üzərində işləyərkən özümüzə daim "qarşı tərəf bu arqumentə necə cavab verə bilər?" sualını verirdik. Bu nəticənin arxasında isə, şübhəsiz ki, komanda işi dayanırdı. Memorandum üzərində işlədiyimiz müddətdə tez-tez zənglərə qoşulur, hüquqi məsələləri birlikdə müzakirə edir, müxtəlif mənbələri araşdırır və tapdığımız məlumatları bir-birimizlə bölüşürdük. Bəzən bir arqument üzərində uzun müddət müzakirə aparır, onun daha güclü şəkildə necə əsaslandırıla biləcəyini birlikdə düşünürdük. Hər bir komanda üzvünün fikri yekun memorandumun formalaşmasına öz töhfəsini verdi.

Gələcək illərdə iştirak edəcək komandalar üçün ən böyük tövsiyəmiz bu təcrübədən yalnız qalib gəlmək məqsədilə deyil, öyrənmək və inkişaf etmək imkanı kimi istifadə etməkdir. İlk mərhələlərdə mövzu çətin və ya araşdırma prosesi yorucu görünsə də, hər yeni mənbə, hər müzakirə və hər yazılmış arqument sizi daha güclü hüquqşünas olmağa yaxınlaşdırır. Ümid edirik ki, gələcək iştirakçılar da bu yarışdan bizim qədər faydalı və yaddaqalan bir təcrübə əldə edəcəklər.

# “Ən Yaxşı Cavabdeh Memorandumu” nominasiyasının qaliblərindən

Beynəlxalq Dəniz Hüququ üzrə Məhkəmə Simulyasına hazırlıq çərçivəsində memorandumların hazırlanması komandamız üçün geniş və hərtərəfli hüquqi araşdırma aparmaq baxımından çox dəyərli bir təcrübə oldu. Memorandumların hazırlanması prosesində qarşı tərəfin mövqeyini nəzərə alaraq hər bir hüquqi məsələyə müxtəlif aspektlərdən yanaşmağa, arqumentlərimizi mümkün qədər möhkəm hüquqi əsaslarla formalaşdırmağa çalışırıq.

Araşdırmalarımız zamanı beynəlxalq hüququn əsas mənbələrinə, o cümlədən beynəlxalq müqavilələrə, beynəlxalq adət hüququna, hüququn ümumi prinsiplərinə, eləcə də məhkəmə və tribunal qərarlarına geniş şəkildə istinad etdik. Müxtəlif beynəlxalq məhkəmələrin və tribunalların qərarlarını araşdıraraq onların mövcud məsələlərə necə tətbiq oluna biləcəyini təhlil etdik. Bununla yanaşı, doktrinal mənbələrdən və hüquq ədəbiyyatından da istifadə edərək irəli sürdüyümüz mövqeləri daha əhatəli şəkildə əsaslandırmağa çalışdıq.

Memorandumların hazırlanması sadəcə hüquqi məlumat toplamaqdan ibarət deyildi. Əldə etdiyimiz çoxsaylı mənbələr arasında ən uyğun və mövqeyimizi ən yaxşı şəkildə dəstəkləyən hüquqi əsasları müəyyənləşdirmək, onları sistemləşdirmək və məntiqi ardıcıllıqla təqdim etmək prosesin ən vacib hissələrindən biri idi. Hər bir arqumentin müqavilə müddəaları, adət hüququ, beynəlxalq məhkəmə təcrübəsi və digər hüquqi mənbələrlə dəstəklənməsinə xüsusi diqqət yetirdik.

Komanda şəklində aparılan bu araşdırmalar bizə beynəlxalq hüquqi məsələləri daha dərindən təhlil etməyi, müxtəlif hüquqi mövqeləri müqayisə etməyi və mürəkkəb məsələlər üzrə əsaslandırılmış nəticələrə gəlməyi öyrətdi. Eyni zamanda, memorial üzərində işləmək hüquqi yazı, mənbələrdən düzgün istifadə, hüquqi arqumentlərin qurulması və onların sistemli şəkildə təqdim edilməsi bacarıqlarımızın inkişafına böyük töhfə verdi.

Hazırladığımız cavabdeh memorandumunun “Ən Yaxşı Cavabdeh Memorandumu” seçilməsi isə komandamız üçün bu uzun və intensiv araşdırma prosesinin ən böyük nəticələrindən biri oldu.

# Təşkilati Komitədən

Caspian International Law Moot Court yarışının ilk buraxılışının başa çatması bizim üçün yalnız bir müsabiqənin yekunlaşması deyil, eyni zamanda uzun və kifayət qədər çətin bir yolun uğurlu nəticəsidir. Bu layihəyə başladığımız ilk gündən qarşımıza qoyduğumuz məqsəd sadəcə bir moot court müsabiqəsi təşkil etmək deyil, “ADA Law Society” daxilində yeni bir ənənənin əsasını qoymaq, tələbələr üçün beynəlxalq hüquq sahəsində real və rəqabətli bir platforma yaratmaq idi.

Qeydiyyat prosesinin qurulmasından başlayaraq iştirakçı komandalarla kommunikasiyanın aparılması, memorandumların qəbulu və qiymətləndirilməsi, şifahi mərhələlərin texniki təminatı, cədvəllərin hazırlanması, hakimlərlə koordinasiya və yarışın müxtəlif mərhələlərinin problemsiz həyata keçirilməsi üçün arxa planda çoxsaylı işlər görüldü. İştirakçıların yarış zamanı gördüyü bir neçə saatlıq prosesin arxasında həftələrlə davam edən hazırlıq, çoxsaylı görüşlər, yazışmalar, yoxlamalar və son dəqiqə qərarları dayanırdı.

Bu prosesin ən dəyərli tərəflərindən biri isə bizim təşkilatçı kimi öyrəndiklərimiz oldu. Bu yarış bizə yalnız hüquqi biliklərimizi deyil, eyni zamanda layihə idarəçiliyi, komanda işi, vaxtın idarə edilməsi, peşəkar kommunikasiya və detallara diqqət kimi bacarıqlarımızı inkişaf etdirmək imkanı verdi. Yarışın hər bir mərhələsində qarşımıza çıxan problem növbəti mərhələdə daha yaxşı hazırlaşmağımıza kömək etdi.

Müsabiqənin ilk buraxılışının təşkilində iştirak etmək və gələcək illərdə davam etdirilə biləcək bir layihənin təməlini qoymaq bizim üçün çox dəyərlidir. İnanırıq ki, bu ilk buraxılış gələcək təşkilati komitə üçün həm bir başlanğıc nöqtəsi, həm də inkişaf etdirilə biləcək möhkəm bir təməl olacaq.

Hörmətlə,

| | |
|---|---|
| Murad İskəndər | "ADA Law Society"-də 2025-2026-cı il ərzində Prezident |
| Aysel Səlimova | "ADA Law Society"-də 2025-2026-cı il ərzində Vitse-Prezident |
| Nilufər Tağıyeva | "ADA Law Society"-də 2025-2026-cı il ərzində Tədbirlərin təşkili üzrə menecer |
| Qədir Səfərli | "ADA Law Society"-də 2025-2026-cı il ərzində Məhkəmə simulyasiyaları mütəxəssisi |
| Aydan Mehdiyeva | "ADA Law Society"-də 2025-2026-cı il ərzində Məhkəmə simulyasiyaların təşkilatçısı |
| Salman Hüseynov | "ADA Law Society"-də 2025-2026-cı il ərzində Məhkəmə simulyasiyaların təşkilatçısı |
| Zəkiyyə Hüseynova | "ADA Law Society"-də 2025-2026-cı il ərzində Koordinator |
| Aytac Zeynalova | "ADA Law Society"-də 2025-2026-cı il ərzində Xəzinədar |

Bu final hesabatının hazırlanmasında əməyi keçən hər kəsə təşəkkürümüzü bildiririk.

---

| | |
|---|---|
| Salman Hüseynov | "ADA Law Society"-də 2026-2027-ci il ərzində Prezident |
| Aydan Mehdiyeva | "ADA Law Society"-də 2026-2027-ci il ərzində Vitse-Prezident |
| Nigar Hüseynova | "ADA Law Society"-də 2026-2027-ci il ərzində Müsabiqələrin təşkili üzrə menecer |
| Mahirə Hüseynli | "ADA Law Society"-də 2026-2027-ci il ərzində Məhkəmə simulyasiyaları mütəxəssisi |
| Nail Nəbiyev | "ADA Law Society"-də 2026-2027-ci il ərzində Məhkəmə simulyasiyalarının təşkilatçısı |
| Ümid Yusifli | "ADA Law Society"-də 2026-2027-ci il ərzində Məhkəmə simulyasiyalarının təşkilatçısı |
| Aytac Zeynalova | "ADA Law Society"-də 2026-2027-ci il ərzində Məhkəmə simulyasiyalarının təşkilatçısı |
| Nərgiz Kərimli | "ADA Law Society"-də 2026-2027-ci il ərzində Qrafik Dizayner |
| Aqşin Əhmədov | "ADA Law Society"-də 2026-2027-ci il ərzində Qrafik Dizayner |

Caspian International Law Moot Court

The 1st Caspian International Law Moot Court Competition

Baku, Azerbaijan · 2026